Ə
N.72

3 BÖYÜK SƏRKƏRDƏLƏR, XAQANLAR

Əlisa NİCAT



ŞAH İSMAYIL

633 Az 2
Ə-62
N.72

Rəssamı RAFİS

Redaktoru ELMİRA FƏRRUXZADƏ

Əlisa Nicat.
Şah İsmayıl. B.; Gənclik, 1994. 16 səh.

Azərbaycan xalqının böyük oğlu Şah İsmayıl Xətai bütün həyatını Azərbaycana həsr etmişdir. Qılıncı ilə Azərbaycanın azadlıq və müstəqilliyini qoruduğu kimi qələmiylə də onun mə"nəvi yüksəlişinə xidmət etmişdir. Xətai haqqında tarixi roman müəllifi olan Əlisa Nicatın bu kiçik kitabçasında böyük şair və dövlət xadiminin həyatı və fəaliyyəti yığcam şəkildə qələmə alınmışdır.

N 4702060201 87-94
M 653 /07/ - 94

ISBN 5-8020-1093-2

© Gənclik, 1994

Ars 241

Əlisa NİCAT

ŞAH İSMAYIL



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 80537

Bakı—Gənclik 1994




1493-cü ilin payızında Savalanın ətəklərilə qurumuş otları, yarpaqları xışıldada-xışıldada Gündoğana tərəf dörd atlı çapırdı. Başlarında on iki qırmızı zolaqlı çalma, çiyinlərində polad sinəbənd, bellərində uzun, əyri qılınc, ucaboy, enlikürək dörd atlı... Atlar qan-tər içində idilər. Atlıların sifəti isə daş kimi sərt və hissiz idi. Onlar dinib-danışmadan çapır, çapırdılar. Yalnız qabaqda çapan atlı sür"əti azaltmadan arabir əlini qaşları üstünə qoyub ətrafı seyr edirdi. Ancaq hamının nəzəri ikinci atlıda, onun tərkində yatmış uşaqda idi.

Kimdi bu atlı? Onlar hara belə dördnala çapırdılar? İkinci atlının tərkindəki balaca oğlan kim idi?

Xülafə bəy Ustaclı, Hüseyn bəy Lələ, Məhəmməd bəy Ustaclı və Piri bəy Qacariydi bu atlılar. Onlar Ağqoyunlu hökmdarı Rüstəm Mirzənin tə"qibindən uzaq Gilana, Ləhicana çapırdılar. Qaçırdıqları isə Azərbaycan torpağının, Azərbaycan xalqının və Azərbaycan dilinin xilaskarı yeddi yaşlı İsmayıl idi. Amu-Dəryadan Bağdada kimi, Dərbənddən Herata kimi ucsuz-bucaqsız gələcək Qızılbaş səltənətinin banisi və hökmdarı Şah İsmayıl Səfəvi idi.

Qızılbaş əmirləri pənah axtardıqları yerə qaçmaqda səhv etmədilər. Gilan hakimi Mirzə Əli İsmayılı və arxadaşlarını sevinclə qarşıladı və altı il tə"qiblərdən qoruyub saxladı. Ağqoyunlu hökmdarı nə qədər elçi və qoşun göndərib İsmayılı tələb etsə də səfəvilərin qüdrətinə inanan Gilan hakimi onu düşmənlərə vermədi.

Günlərin bir günü Ağqoyunlu Hökmdarı Gödək Əhməd öz



məşhur əlaltısı qəddar və hiyləgər Əbih Sultanı hüzuruna çağırtdırdı. Əbih Sultan çağırışın səbəbini bilmədiyindən bərk narahat idi. Buna görə hökmdarın hüzuruna daxil olanda onun üzünə baxdı, həmişəki kinayəli təbəssümü görməyib ürəyi sakitləşdi. Taxtın üstündə xeyli əzəmətli görünən hökmdar ayağa qalxanda doğrudan da nə qədər gödək olduğu aşkar olurdu.

Hökmdar — Əbih, səni bir səfərə göndərirəm, — dedi. O, Əbih Sultanın nəsə deyəcəyini gözlədi. Lakin iradəli Əbih, Əhməd şahın hövsər kimi yastı üzünə baxırdı.

— Səni Gilana göndərirəm. Səni and verirəm atanın qəbirdən çıxarılıb oğurlanan meyidinə, mənim yanıma əliboş qayıtma.

Səfəvilərin son qırığını, balaca tilsimçini alıb gətir. Gətirsən, and olsun bu taxt üstündəki kitaba, dünyada nə istəsən, haranın hakimliyini diləsən, verəcəyəm.

Əbih Gödək Əhmədin yenə onun atasının meyidinin oğurlanması əhvalatını yada salmasından hirsləndi, ancaq neyləyə bilərdi.

— Yüz atlı götür, ya dirisini, ya da ölüsünü gətir.

— Şah sağ olsun, axı deyirlər orda yoxdur. İndiyəcən neçə dəstə gedib.

— Cəhənnəmə gediblər, gora gediblər. Sən tapıb gətir.

— Axı bəlkə doğrudan da orda yoxdur, — deyə Əbih tərs-tərs hökmdarın üzünə baxdı. Bu da öz tə"sirini göstərdi. Gödək əlini uzadıb böyründəki kiçik taxçadan Qur"anı götürüb çığırdı:

— Onda qoy qoca seyid buna and içsin ki, həqiqətən Gilanda deyil. Bildinmi?!


— Bəli.

— Get!

Sadiq adamları vasitəsilə Əbih Sultanın səfəri barədə çoxdan mə"lumat alan müdrik Gilan hakimi Seyid Mirzə Əli balaca İsmayılı Qızılbaş igidləri ilə bərabər Gilanın meşələrinə yola salıb gənc şeyx üçün ağacların təpəsində yataq düzəldib bir neçə gün orada saxlanılmasını əmr verdi.

Elçilər Ləhicana gələndə Mirzə Əli onları gülər üzlə qarşılayıb rahatladı. Ertəsi gün Əbih Sultan gəlişinin məqsədini bildirib hədə-qorxu ilə İsmayılı tələb etdi. Gilan hakimi Qur"an gətirilməsini əmr etdi. Qur"an gətirildi. Mirzə əlini Qur"ana basıb dedi:

"Allahın bu müqəddəs kitabına, Qur"ani Kərim və Qur"ani Şərifə and olsun ki, İsmayıl Heydər oğlu Gilan torpağında deyil".


لا إله إلا الله محمد رسول الله

Və doğrudan da İsmayıl bu zaman sıx meşələr qoynunda, ağacların təpəsində düzəldilən yataqda şirin-şirin yatırdı. Bu and ilə Gilan hakimi İsmayıla və onun nəslinə həyat, Azərbaycan xalqına isə parlaq bir tarix bəxş elədi.

1499-cu ildə 14 yaşlı İsmayıl öz tərəfdarlarıyla ilk yürüşə çıxdı. Babası Şeyx Cüneyd və atası Şeyx Heydər kimi o da Azərbaycan taxt-tacı uğrunda mübarizəyə başladı.

Allah ondan heç nə əsirgəməmişdi. Boy-buxun, yaraşıq, güc, ağıl və nəhayət, iste"dad... Bütün bunlar bir şəxsin simasında cəm olmuşdu. Üstəlik bu şəxs müqəddəs bir nəslin son yadigarı idi, ulu nəsəbi Həzrəti Əliyə gedib çıxırdı.

Bütün bunlara görə Azərbaycanın hər yerindən igid seçmə cavanlar onun yanına axışdılar. Qışı Ərzincanda keçirəndən sonra İsmayıl öz əmirləri və yeddi minlik qoşunuyla qədim pars nəslinin qalıqlarından olan şirvanşahlar üzərinə yeridi. Şirvanşah Fərrux Yasarın iyirmi minə qədər ordusu Şamaxı yaxınlığındakı Cəbani düzənliyində qızılbaşlarla üz-üzə gəldi. Qızılbaşlar qəhrəmanlıqla vuruşub qalib gəldilər. Yasar öldürüldü.


1500-ci ildə Şah İsmayıl Bakını almağa əvvəlcə Məhəmməd Ustaclını göndərdi. Ancaq şəhərdə hakimlik edən Şirvan şahı Qazi bəyin arvadının inadlı müqaviməti nəticəsində şəhəri almaq olmurdu. İsmayıl özü gəldi. Günlərlə çəkən mühasirə səmərə vermir, Qazi bəyin arvadı bütün təklifləri rədd edib elçilərin boynunu vurdururdu. Nəhayət, qızılbaşlar lağım atıb bürclərin birini aşdılar və şəhərə doldular.

Lakin içəridə bir dəstə bakılı inadla çarpışır, nə cür olursa olsun mühasirədən çıxmaq istəyirdi. Bunun çətin olduğunu görüb ölümə məhkum olmuş adamlar kimi vuruşurdular. Dəqiqələr keçir, mühasirə halqası get-gedə daralırdı. Bu o qədər qəribə bir döyüş idi ki, qalaya yenicə girmiş İsmayıl bayaqkı cəngavəri unudub atını irəli sürdü. Mühasirəyə düşmüş bakılıların içindəki gözəl cavanın indi özü də vuruşurdu. Bu o qədər xoşsimalı, mütənasib bir gənc idi ki, İsmayılın istər-istəməz ona qanı qaynadı. "Yəqin ki, Qazi bəyin oğludur" — deyə düşünən İsmayıl gəncin təhlükədə olduğunu görüb, əlini qaldırdı:

— Öldürməyin!

Vuruşan gənc isə bu əmri verən şəxsə dönüb baxmadan, əksinə, qılıncını daha qəzəblə endirməyə başladı. İsmayıl gülümsədi.

Cavan çox pis vuruşurdu. Əgər İsmayılın xəbərdarlığı olma-


لا إله إلا الله محمد رسول الله

saydı, qızılbaşlar yəqin ki, onun gözəl başını çoxdan yerə diyirlətmişdilər.

Gəncin inadı İsmayıla xoş gəlirdi. O, at üstə ilan kimi qıvrılır, özünü güclə saxlayırdı. Birdən gəncin atı qılınc zərbəsindən diksinib irəli sıçpadı. Bu zaman Hardansa bir atlı yel kimi çapıb gələrək özünü dəstəyə vurdu. Qızılbaşlar dağıldı. Atlı irəli sıçrayıb, özünü atı büdrəmiş gəncə yetirdi və bir an içində onu atdan qaldırıb ağuşuna basdı.

Qızılbaşlar təəccüb içində donub qalmışdılar. Bu zaman ikinci bir mö"cüzə baş verdi. Yenicə gələn atlının qucağındakı gəncin dəbilqəsi başından düşdü. Gur tellər qara şəlalə kimi bakılı igidin sinəsinə töküldü. İgid bir anlıq səadətdən göpürüb daşan baxışlarını qucağındakı gözələ zillədi, gözəl isə qollarını gəncin belinə dolayıb üzünə baxırdı. İgid atını mahmızladı.

Özünə gələn qızılbaşlar qılınclarını çəkib onun yolunu kəsdilər. İsmayıl dərindən köks ötürüb çığırdı:

— Buraxın!

Gənc sevgilisini bağrına basıb, minlərlə gözün müşayiəti ilə toz qopara-qopara çapıb gözdən itdi.


Qaranlıq düşəndə Bakının yetmişə qədər ağsaqqalı əllərində Qur"an İsmayılın hüzuruna gəldi. İsmayıl şəhərə aman verdi və döyüşü dayandırdı. Gecəni Bakıda keçirən qızılbaş qoşunu [illegible] çağı Gülüstan qalasına tərəf yeridi.

1500-ci ildə Ağqoyunlu səltənəti iki əmioğlu, Əlvənd və Murad arasında bölünmüşdü. Səltənətin quzey ölkələrinə Əlvənd, güney ölkələrinə isə Murad şahlıq edirdi. Onlar Fərrux Yasardan qat-qat güclü idilər. Ancaq tarix öz hökmünü vermişdi. Ağqoyunluların bəxt günəşi bathabatda idi.

Əlvənd Mirzə böyük bir ordu ilə Naxçıvan yaxınlığındakı Şərur düzənliyində qızılbaşların yolunu kəsdi. Əlvənd qoşunun arxa hissəsində dəvələri zəncirlə bir-birinə bağlatdırmışdı ki, onlar geriyə qaça bilməsinlər. Amma nə faydası. Əlvəndin bütün sərkərdələri öldürüldü. Böyük ordusu pərən-pərən olub dağıldı. Yalnız şahın özü kiçik bir dəstə ilə Ərzincana tərəf qaçmaqla canını qurtara bildi.

Bu döyüşdə 15 yaşlı İsmayılın cəsurluğu və qəhrəmanlığı düşmənləri vahiməyə saldı. Onun adı dillər əzbəri oldu.

1501-ci ilin payızında min yaşlı Təbriz görünməmiş bayram və təntənə içində idi. Minlərlə təbrizli küçələrə axışıb qızılbaş qoşunları qabağında doğma şəhərə varid olan 16 yaşlı İsmayılı qarşılamağa çıxmışdı.


لا إله إلا الله محمد رسول الله

Həmin gün dünya Qızılbaş və ya Azərbaycan dövləti adlı yeni bir səltənəti tanıdı.

İki il sonra Şah İsmayıl Həmədan yaxınlığında Ağqoyunlu Murad bəyin yetmiş minlik ordusuna qələbə çalıb Ağqoyunlu sülaləsinin hökmranlığına son qoydu. Bütün İran və Bağdad da daxil olmaqla İraq qızılbaşların hakimiyyəti altına keçdi. Xülafə xan Qızılbaş canişini kimi Bağdadda oturdu.

1510-cu ildə özbək şahı Şeybani dəfələrlə şah İsmayıla məktub yazıb ona hədə-qorxu gəlirdi.

Şah İsmayıl bu hədə və məktublardan bezikib Herata tərəf yeridi. Burada o, dahi sərkərdəlik məharəti göstərib az bir qüvvə ilə Şeybanini məğlub etdi və Xorasan səfəvilər dövlətinə qatıldı.

Bu döyüşdən sonra Qızılbaş dövləti Şərqin böyük və qüdrətli səltənətinə çevrildi.

Bütün Şərqdə Azərbaycan-türk dili yayılmağa başladı, şairlər, rəssamlar, me"marlar bura axışdı. Təbriz Yaxın Şərqin mədəni mərkəzinə çevrildi.

Özün cavan və sağlam, neçə-neçə ölkənin hökmdarı, üstəlik dahi şair olasan və nəhayət, adın xalqının dilində, məhəbbətində, qəlbində ola... Dünyada bundan böyük xoşbəxtlik olarmı?

1514-cü ildə taxta çıxan türk sultanı I Səlim Yavuz 300 minlik bir ordu ilə Azərbaycana yeridi.

Şah İsmayıl döyüşə hazır deyildi. Qoşunu az idi.

Nəhayət, 22 avqust 1514-cü ildə Maku yaxınlığındakı Çaldıran düzənliyində misli-bərabəri olmayan iki türk ordusu üz-üzə gəldi. Fransadan aldığı topların köməyi ilə Sultan Səlim qalib gəldi.

Şah İsmayılın yaxın silahdaşları Hüseyn bəy Lələ, Məhəmməd və Xülafə Ustaclılar, Əbdi bəy və başqaları bu döyüşdə həlak oldular. Rəvayətə görə şahın özü osmanlı toplarının üstünə gedib onları qırıb dağıtmışdı.


Daha başqa bir rəvayətə görə Çaldıran döyüşünün qızğın vaxtında Şah İsmayılın yanına düşən topun mərmiləri ətrafına səpələnir. Sərkərdələri onun yaralandığını zənn edib tez yanına yüyürürlər:

— Şahım, yaranız hanı? — deyə soruşurlar.

Hökmdar topun dağıtdığı torpağı onlara göstərib deyir:

— Odur yaram.

Dünya tarixinə düşən bu döyüşlə də gələcək qanlı osmanlı-qızılbaş müharibələrinin əsası qoyuldu. Bu müharibələr həm



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 80537

bizim, həm də osmanlı qardaşlarımızın köksünə ağır yaralar vurdu. Nəticədə dünyaya meydan oxuyan osmanlı orduları iki dəfə Vyananı mühasirəyə alsalar da məğlub olub geri çəkildilər və beləliklə, türklərin Avropaya doğru müzəffər yürüşünə son qoyuldu.

Doğrudur, Azərbaycan səfəvi dövləti elə bir itki vermədi. Amma Şah İsmayılın qüruruna toxunulmuşdu. O, Çaldırandakı məğlubiyyətdən sonra bir daha qılınca əl atmadı. Xalq dilində bayatılar, qoşma və təcnislər yazdı. Cəmi 37 il yaşasa da xalqımızın zehnində və tarixində dərin iz buraxdı. Onun şərəfinə dastan qoşuldu, aşıq havası və xalça çeşnisi yaradıldı. Adı sonra gələn bütün şərq aşıqlarının dilinin əzbəri oldu.

Şah İsmayılın ən böyük xidməti — Azərbaycan türk dilini dövlət dili səviyyəsinə qaldırması oldu.

Şah İsmayıl vətənini çox sevir, onun meşələrini, yaylaqlarını gəzməkdən yorulmurdu. O, qədim paytaxtımız Təbrizi "Azərbaycanın anası" adlandırırdı.

Şah İsmayıl Ərdəbildə Şeyx Səfi məqbərəsində, ata-anasının və babalarının yanında dəfn olunmuşdur. Azərbaycan xalqı üçün əlbəttə bu gün Şeyx Səfi türbəsindən müqəddəs yer yoxdur.



Orta və yuxarı yaşlı məktəblilər üçün

Əlisa Nicat
Şah İsmayıl

Bakı. Gənclik. 1994.

Nəşriyyatın direktoru **Ə. T. Əliyev**
Mətbəənin direktoru **Ş. M. Cəfərov**

Bədii redaktoru **T. Qasımov.** Texniki redaktoru **L. Qarayeva.** Korrektoru **S. Musayeva.**

50 M. İB N-6269

Fotoyığıma verilmiş 10. 01. 93. Çapa imzalanmış 31. 04. 93. Kağız formatı 60x90 1/8. Afset kağızı Afset üsulu ilə. Şərti ç/v 2,0. Rəngli şərti ç/v 4,0. Uçot nəşr v. 1,7. Tirajı 25000 Sifariş 1805 Müqavilə qiyməti ilə

Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi
"Gənclik" nəşriyyatı, Bakı, Hüsi Hacıyev küçəsi, 4.
"Azərbaycan" nəşriyyatı mətbəəsi. Bakı, Mətbuat prospekti, 529.

